## BMT-nin koordinatoru: COP29 hər cəhətdən yüksək səviyyədə təşkil olunub

Azərbaycan COP29-a möhtəşəm şəkildə ev sahibliyi edir. Mən keçmişdə xidmət sektorunda işləmiş biri kimi deyə bilərəm ki, tədbir yalnız logistik və təşkilati baxımdan deyil, hər cəhətdən yüksək səviyyədə təşkil olunub.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunda baş proqram koordinatoru Daniel Nazarov söyləyib.

Azərbaycan xalqının qonaqpərvərliyindən məmnun qaldığını deyən Daniel Nazarov qeyd edib ki, bu tədbir vasitəsilə azərbaycanlıların qonaqpərvərliyi bütün dünyaya yayılacaq.

“Bir neçə gün öncə BBC-də COP-la bağlı yayılan podkast var idi. Orada iqlim dəyişikliyinə qarşı mübarizə məsələsi ilə əlaqəli bu cür önəmli platformanın yaradılmasının çox müsbət hal olduğu qeyd edilirdi. Bu işdə hər bir ölkənin səsinin bərabər şəkildə eşidilməsi çox əhəmiyyətlidir. Demək olar ki, bütün COP tədbirləri ümumi gündəliyə sahibdir. Əminəm ki, COP29 COP30 üçün daha etibarlı zəmin yaradacaq”, - deyə D.Nazarov vurğulayıb.

**AZƏRTAC**
**2024, 11 noyabr**